# "QIZIL OĞLANLAR"

## Dünya və Avropa çempionu olan cüdoçularımız həm də Olimpiya Oyunlarında qalib gəldilər








**Cüdo ölkəmizdə ən populyar idman növlərindən biri olmaqla yanaşı, kütləvilik baxımından ön sıralarda dayanır. Tarixi kökü olan bu idman növü Azərbaycanda da inkişaf etməkdədir. Azərbaycan cüdo məktəbinin yetirmələri olan Olimpiya, dünya, Avropa çempionları iştirak etdikləri bütün yarışlarda rəqibləri üçün ən ciddi və ən çox ehtiyat edilən idmançılar sayılırlar. Yəni cüdoçularımız iştirak etdikləri müxtəlif turnirlərin favoritləri sırasında göstərilirlər.**

Fransada təşkil olunan XXXIII Yay Olimpiya Oyunlarında medal gözlədiyimiz idman növlərindən biri də cüdo idi. Sevindirici haldır ki, başa çatan cüdo yarışlarının yekununda Hidayət Heydərov və Zelim Kotsoyev ölkəmizin aktivinə qızıl medallar yazdırdılar. Maraqlısı odur ki, cüdoçularımız iki il ərzində həm Avropa, həm dünya, həm də Olimpiya çempionu olmaqla "qızıl het-trik"ə imza atdılar.

Parisdə ilk olaraq Hidayət Heydərov medal həsrətinə son qoydu. Dünya çempionumuz kolleksiyasına daha bir medal əlavə etdi. Özü də finalda fransalı həmkarını məğlub etməklə...

73 kiloqram çəkidə mübarizə aparan dünya reytinqinin birincisi Hidayət Heydərov mübarizəyə 1/8 finaldan başlayıb. Onun rəqibi 1/16 finalın Tohar Bitbul (İsrail) - Reduan Masud Dris (Əlcəzair) cütündə müəyyənləşməli idi. Lakin afrikalı bu qarşılaşmaya çıxmaqdan imtina edib. Hidayət Olimpiadaya Bitbulla görüşlə start verib. O, rəqibini məğlub edərək, mərhələ adlayıb.

H.Heydərov 1/4 finalda Artur Marqelidon (Kanada) ilə qarşılaşıb. Gərgin keçən qarşılaşma həmyerlimizin qələbəsi ilə bitib. İpponla qalib gələn Hidayət yarımfinalda kosovalı Akil Qyakova ilə üz-üzə gəlib. Bu mərhələdə də rəqibini üstələyən cüdoçumuz adını finala yazdırıb. Həlledici mərhələdə isə rəqib fransalı Joan-Benjamin Qaban idi. Çətin keçən qarşılaşmada rəqibinə ippon fəndi ilə qalib gələn Hidayət Olimpiya çempionu oldu. Bununla da, Hidayət Heydərov bir il ərzində həm Avropa, həm dünya, həm də Olimpiya çempionu olmaqla "qızıl het-trik"ə imza atmış oldu.

Növbəti qürur dolu anları Azərbaycana cüdoçumuz Zelim Kotsoyev yaşadıb. Belə ki, təmsilçimiz Fransanın paytaxtı Parisdə növbəti qızıl medalı qazanaraq, Dövlət himnimizi səsləndirib, bayrağımızı hamıdan yüksəkdə dalğalandırıb.




Azərbaycan millisinin Yay Olimpiya Oyunlarında medal ümidlərindən sayılan və 100 kiloqram çəki dərəcəsində yarışan Zelim Kotsoyev 1/8 finalda Polşa idmançısı Pyotr Kuçera ilə qarşılaşıb. Təmsilçimiz ilk görüşündə ipponla qalib gələrək 1/4 finala yüksəlib. Bu mərhələdə onun rəqibi israilli Peter Paltçik olub. Dünya çempionumuz bu görüşü də qalib başa vuraraq adını yarımfinala yazdırıb.

Cüdoçumuz finala gedən yolda özbəkistanlı Muzaffarbek Turobоyevlə qarşılaşıb. Rəqibinə qalib gələn idmançımız finala çıxıb. Kotsoyev çempionluq görüşündə gürcüstanlı İlya Sulamanidze ilə güləşdən qalib ayrılaraq Olimpiya çempionu adına sahib olub.

Zelim Kotsoyev hazırda öz çəkisində dünya reytinqində 1-cidir. Osetiyalı milliləşdirilmiş legionerimiz 2023-cü ilin noyabrında Avropa, 2024-cü ilin mayında isə dünya çempionu olub.

Beləliklə, Parisə 9 cüdoçu ilə yollanan Azərbaycan 2 qızıl medal qazanmaqla bu idman növündə Olimpiadanı 2-ci pillədə başa vurub. İlk sırada Yaponiya cüdoçuları qərarlaşıblar (3 qızıl, 1 gümüş, 3 bürünc).

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


Azərbaycan.- 2024.- 4 avqust (№ 164).- S.11.